

YAĞMUR ARZU NURİ

## QÜRUR

Deyirlər sevgidə qurur olmazmış,
Qurur hər insana daim gərəkdir.
İstər sevən olsun, istər sevilən,
Qurur qadın üçün vuran ürəkdir.

Bütün mən-mənlərin önünü kəsən,
Yeganə qurur var heç vaxt qırılmaz.
Qadınlıq qüruru, Analıq haqqı,
Heç vaxt bir kimsənin önündə sınmaz.

Hər kəsin ömründə bir qadını var,
Kiminə Anadı, kiminə bacı.
Birgə qadın var ki, olur sənə yar,
Qadının kişiyə var ehtiyacı.

Siz də [illegible]

Bilirəm bu həsrət üzəcək bizi,
Sənin vusalına bürünməyəcəm.
Gizli qoruyacam mən sevgimizi,
Sənin gözlərinə görünməyəcəm.

Ürək gizli-gizli yenə yanacaq,
Bir damla göz yaşım dəniz olacaq.
Sənin ilə sənsiz yaşanan günlər,
Sənsiz sənli gündən əziz olacaq.

## ÜRƏYİM

Sən demə bir dəli küləyə bəndmiş,
Anıb ötənləri ağlar ürəyim.
Deməк ki, yüngül bir həmləyə bəndmiş,
Dilə gəlsə məni dağlar ürəyim.



## ANALI DÜNYA

Analı dunyanın təbii başqadı,
Analar vuqarlı bir dağ olurlar.
Heyif ki, övladdan qəlbi incisə,
Analar sinəsi dağ-dağ olurlar.

Analı dünyanın dəmi başqadı,
Toyda da yasda da dayağın olar.
Analar qocalıb əldən düşsə də,
Süfrəndə ən əziz qonağın olar.

Analı dünyanın qəmi başqadı,
Analar dərdini heç vaxt deməzlər.
Ana kuskün olsa bir evdən əgər,
O evə nə şənlik,nə sevinc girər.

Analı dünyanın çəmi başqadı,
Ana gözlərinin yuxusu qalıb.
Ananin köksündə rahat uyuyan,
Neçə körpələrin qoxusu qalıb.

Ən gözəl dünyadı Analı dünya,
Analar övlada arxa, dirəkdi.
Analar önündə səcdə edirəm,
Analar cənnətdə olan mələkdir.

## MƏN SƏNİ SEVMƏYİ ELƏ SEVDİM Kİ

## APAR MƏNİ

Yenidən bir həyat yaşatmaq üçün,
Məni əzəl başdan yaratmaq üçün,
Mənim dərdlərimi azaltmaq üçün,
Apar məni mən olmayan yerlərə.

Apar, mən də bilim nədir səadət,
Nədir əsil sevgi, nədir məhəbbət.
Qoy sevinc də olsun ömrümə qismət,
Apar məni mən olmayan yerlərə.

Apar məni məndən lap uzaqlara,
Atali-Analı xöşbəxt çağlara.
Bənzəyim çox dəcəl, kür uşaqlara,
Apar məni mən olmayan yerlərə.

Apar məni başı duman dağlara,
Bülbüllər oxuyan güllü bağlara.
Yanğımı söndürən buz bulaqlara,
Apar məni mən olmayan yerlərə.

Apar at küləyə, sərin yellərə,
Məni məndən uzaq qurbət ellərə.
Ya da at çaylara, axan sellərə,
Apar məni mən olmayan yerlərə.

Apar o yerə ki, orda şənlik var.
Apar o yerə ki, orda insanlar
Daim xöşbəxt olub şən yaşayırlar.
Apar məni mən olmayan yerlərə...